BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2008*

# AZƏRBAYCAN ƏHALİSİNİN ANTİK DÖVRDƏ İSTİFADƏ ETDİYİ BƏZƏK ƏŞYALARI

F.K.ƏLİYEVA
*AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu*

Öncədən qeyd etmək lazımdır ki, ümumiyyətlə, bəzək əşyalarının mənəvi aləmlə çox böyük əlaqəsi var. Elə yaşadığımız dövrdə də insanın istifadə etdiyi gündəlik əşyalara görə onun daxili dünyasını müəyyənləşdirmək çətin deyil. Məhz bu baxımdan müəyyən bir ərazidə formalaşmış mədəniyyətin öyrənilməsində həmin məkanda yaşayan əhalinin istifadə etdiyi bəzək əşyalarının tədqiqinin rolu böyükdür.

Hal-hazırda antik dövrə aid bəzək əşyalarından söhbət gedir: üzüklər, bilərziklər, sırğalar, muncuqlar bu qəbildəndir.

Yazılı mənbələr və arxeoloji qazıntılar antik Azərbaycan – Midiya Atropatena və Qafqaz Albaniyasının mədəniyyətini öyrənmək üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, arxeoloqlar müxtəlif rəngli və ölçülü bəzək əşyaları üzə çıxarmışlar. Onlar ilə «kəmərləri, ayaqqabıları, geyimləri, sancaqları, bilərzikləri bəzəyirdilər» (1). Muncuqlar ornamentin müxtəlifliyi və ölçülərinə görə bir-birindən fərqlənirlər. Sırğaların hazırlanmasında kəhrəba, əqiq, balıqqulağından istifadə olunurdu. Misir və Suriya mənşəli, üzərində ornamenti olan daş və saxsı böcəklər də xüsusi maraq kəsb edir. Tarixi ədəbiyyatda bunlar skarabeuslar adlanır (2). Skarabeusların üzərində, görünür, Misir və Ön Asiya əhalisinin mənəvi aləmi ilə bağlı olan təsvirlər həkk olunmuşdu.

Mingəçevir küp məzarlarından bəzək əşyaları baxımından dövr üçün adi olan küknar ornamentli muncuqlar diqqəti cəlb edir (3). Qəbirlərin birində «insan sifətini əks etdirən» (4), diametri 1 sm olan muncuqlar əldə edilmişdir (5). Etnologiya elmi qazıntı nəticəsində tapılmış əşyanın təyinatı məsələsinə yardım edir. Bu baxımdan Azərbaycanda bəd nəzərdən qoruyan bəyaz dairəli gözmuncuğu əhəmiyyət kəsb edir. Bu gözmuncuğunu qola və ya əlbisəyə bağlamaq ənənəsi indiyə qədər davam edir. Xaricdən antik Azərbaycan ərazilərində yayılan kauri sədəfi də diqqətəlayiqdir. Orta Asiyada kauri sədəfindən bəd nəzərdən qoruyan amulet kimi istifadə olunur (6). Həfriyyat nəticəsində əldə edilmiş aşıqlar da bu qəbildəndir. Yaloylutəpə tipli torpaq qəbirdən formaca lira musiqi alətini xatırladan sədəf muncuq üzə çıxarılmışdır. Muncuğun üst səthini qazma şaquli xətt iki yerə ayırır. Hər iki tərəfdə nöqtə şəkilli dairəciklər var. Bu muncuqlar öyrənilən dövrdə Aralıq dənizi üçün səciyyəvidir (7). A.A.Qaraəhmədovanın fikrincə, Mingəçevir küp qəbirlərindən çox muncuq əldə edilib, uzaqlardan gələn idxal və ya import da az deyil. Məlumdur ki, torpaq qəbirlərə xas muncuq növünə Kürün sağ sahili küp məzarlarında təsadüf edilir. Əksinə, Yaloylutəpə torpaq qəbir-

lərində e.ə. III-I əsrlərə aid Mingəçevir küp məzarındakı muncuq növlərini tapmaq qeyri-mümkündür. İdxal və ya importa aid muncuqlar Mingəçevirə Qara dəniz sahillərindən, Yaloylutəpə bölgəsinə isə Suriyadan, elə bu vaxt içində amuletlər Xınıslı və Mingəçevirə Misirdən, mozaikalı muncuqlar isə Suriyadan gətirilirdi.

Mənəvi mədəniyyət baxımından Şamaxı və Mingəçevir tanaları diqqətəlayiqdir (8). Torpaq və katakomba məzarlarından aypara şəkilli qızıl sırğalar üzə çıxarılmışdır. Görünür, onların aya sitayişlə böyük əlaqəsi olub.

Analoji tanalar (amma yalnız gümüşdən) Nesxet, Qarnı, Dura Evropos abidələrində qeydə alınmışdır (9). A.A.Qaraəhmədovanın fikrincə, həmin tanalar Roma dövləti ilə ticarətin məhsulu olub bu bölgəyə oradan idxal edilirdi. Həqiqətən, arxeoloji qazıntılar nəticəsində eramızdan əvvəl son illərə – eramızın başlanğıcına aid çox sayda gümüş, bürünc və dəmir fibulalar, eyni zamanda maddi mədəniyyətlə bağlı qızıl, gümüş, sümük, şüşə və qiymətli daşlardan hazırlanmış tapıntılar üzə çıxmışdır (10).

Həfriyyat zamanı ucları ilan başlı bilərziklər tapılmışdır. Elm aləminə e.ə. V-III əsrlərə aid torpaq qəbirlərdən, diametri 6,5 sm. olan bilərzik, küp qəbirdən diametri 6,7 sm olan gümüş bilərzik məlumdur. Bu növ bilərziklər qonşu bölgələrə də məxsusdur. İlan təsvirləri ibadət ilə bağlı torpaq, küp və katakomba məzarlarından çıxan qablar üzərində əksini tapmışdır. Deməli, ilan protomları əski Azərbaycan ərazisində kifayət qədər yayılmışdır. Metaldan düzəldilmiş zoomorf məmulatdan söhbət açarkən Mingəçevir küp qəbrində (e.ə. I ə.) təsadüf edilən ucları buynuzlu qoyun protomu olan gümüş bilərziyi (diametri 7 sm) xatırlamaq yerinə düşərdi. Buynuzlu qoyun protomu motivi qoyun, qoyun başları və ya sxematik buynuz təsvirləri ilə səslənir. Bəzi qəbirlərdən qoyunu qırxmaq üçün qayçılar aşkar olunmuşdur.

Antik Azərbaycanın tarixi gerçəkliyi ilə sıx əlaqədar olan asma bəzək əşyalarından çox danışmaq olar. Mənəvi mədəniyyət baxımından bunlar tədqiqat üçün çox böyük maraq kəsb edir. Bu istiqamətdə əşyalar iki kateqoriyaya bölünür: xaricdən gətirilən və yerli məhsullar. Çox zaman onları ayırd etmək çox çətin olur. Yerli ənənələr Qərbin, eləcə də Şərqin intensiv təsirinə məruz qalırdı. Antik Azərbaycan əhalisinin maddi və mənəvi həyatını yeniləşdirən mədəni transformasiya baş verirdi.

Digər ölkələrdə olduğu kimi, antik Azərbaycan sakinləri də bürünc, gümüş və qızıldan hazırlanmış müxtəlif növ bəzək əşyalarından istifadə edirdilər. Üzüklər də bu qəbildəndir. Onlar insanın yalnız maddi deyil, ictimai vəziyyətindən də xəbər verirdilər. Müqayisə üçün Qərb bəzək əşyalarına müraciət edək. İlkin vaxtlar Romada üzüklər sadə bəzək əşyası deyildi. Belə ki, respublikadan imperiyaya keçid dövründə, habelə eramızın I əsrində dövlət qızıl üzükləri öz səfirlərinə verirdi. Senatorlar, magistrlər və digərləri üzük geyinirdilər (11). Eramızın I əsrində Roma sakinləri, Qərb və Şərqin digər şəhərlərinin əhalisi barmaqlarına çoxlu üzüklər düzdürürdülər (12).

Şəxsi imzanı əvəz edən gemmalar çox maraqlıdır. T.İ.Qolubkinaya görə, bu dövr üçün yunan-Roma dünyasından gəlmiş və yerli istehsala məxsus gemmalı üzüklər əhəmiyyət kəsb edir. Roma gemmalarının yayılmasında Pompeyin və Antoninin yürüşləri mühüm rol oynamışdır. Gəlmə gemmalar çox olduğundan onları yerli məmulatlardan ayırmaq

çətindir. Güman ki, alban ustalarının hazırladığı gemmaların bir qismi heyvan rəsmlidir, digər qismi isə antik aləmin gemmalarına bənzəyir. Gemmalar yumurta şəklində, diametri təxminən 1sm olan əsasən xalgedonun müxtəlif rəng və çalarlarından – qəhvəyi ilə tünd qırmızı, sarı-qırmızı, tünd göy, sarı, sarı-qızılı və qırmızı daşların bəzək növündən hazırlanırdı. Şüşə litiklərə də rast gəlmək olur. Gemmaların üzərində əksər hallarda antik panteonun tanrı və ilahələri – Atena, Mars, Helios və Afrodita, məhsuldarlıq timsalı olan lalə gülü və buğda sünbülü, danası olan inək, əldə mizraq, ayaqlar yanında qalxanı olan çəlik başlıqlı əsgərlər, odu sönməyən qurbangah, sağ əlini qaldırmış kişi görünüşü və həmçinin «qanadlı heyvan» (13) təsvirli gemma üzə çıxarılmışdır. Tədqiqat göstərir ki, gemma qaynağının Qərb dünyası əraziləri olmaqla bərabər, Şərq ölkələrində, o cümlədən Azərbaycanda ortaya çıxması romalıların şərqə doğru yürüşləri ilə bağlıdır. Savaş tanrısı Marsın, günəş tanrısı Heliosun, sevgi tanrısı Erosun və gəzillik ilahəsi Afroditanın şəkli olan gemmalar bu qəbildəndir.

Digər kiçik bir hissəsi, yəni üzərində müqəddəs heyvan, bitki aləmi və dövrün sırf dini simvolları olan gemmalar yerli mədəniyyət məhsulu kimi qələmə verilir.

Yaloylutəpə mədəniyyətinin daşıyıcıları həmçinin metal bəzək əşyalarından da istifadə edirdilər. Diametri 1,5 sm. olan bürünc və diametri 1,8 sm olan dəmir üzükləri buna göstərmək olar (14). Qızıl üzüklər də tapılmışdır. Bütün bunlar öyrənilən dövrə aiddir (15). Daha qədimə aid (e.ə.V-IV əsrlər) bürünc üzüklərin üzərində ceyran, dəniz xərçənginin təsvirləri mövcuddur. E.ə. II – e. III əsrlərində Romanın dini dünyagörüşünə aid təsvirləri olan üzüklər də məlumdur. Eramızın IV-VI əsrlərinə aid yerli gemmalar isə xüsusi maraq kəsb edir (16).

## QEYDLƏR


1. Древнейшие государства Кавказа и Средней Азии. М.: Изд-во Наука, 1985, с. 101.
2. Голубкина Т.И. Четыре кувшинных погребения из Мингечаура. Известия АН Азерб. ССР, 1956, 3, с. 83 и др.
3. Ионе Г.И. Мингечаурские кувшинные погребения с оружием. КСИИМК, 1955, 60, с. 55, рис. 22, 11-13.
4. Казиев С.М. Новые археологические находки в Мингечауре в 1949 г. Известия АН Азерб. ССР. 1949, IX с. 92, рис. 4.
5. Ионе Г.И. Мингечаурские кувшинные погребения. с. 58, рис. 22 (1-3).
6. Баялиева Т. Пережитки магических представлений и их изживание у киргизов. В. кн.: Древняя и раннесредневековая культура Киргизстана. Фрунзе: Изд-во Йлим, 1967, с. 114-132.
7. Карахмедова А.А. Об одном типе серег из Кавказской Албании. СА, 1974, с. 272.
8. Древнейшие государства, с. 171, 174.
9. Апакидзе А.М. и др. Мцхета. Итоги археологических исследований, т. I Тбилиси: Изд-во АН Груз, ССР, 1958, с. 156 и др.
10. Казиев С.М., Асланов Г.М. О двух кувшинных погребениях. МКА, 1951, т. II с. 203, табл. 14; Казиев С.М. О двух кувшинных погребениях и двух катакомбных погребениях. МКА, 1953, т. III с. 28, табл. III, 10; Ионе Г.И. Мингечаурские кувшинные погребения с оружием с. 58, рис. 22, 18-22; Асланов Г.М. К изучению раннесредневековых памятников Мингечаура. КСИИМК, 1955, 60, с. 70, рис. 27, 4; рис. 29, 19-22; Голубкина Т.И.. Археологическое обследование и раскопки, с. 21, 25; Табл. II, с. 25,

рис. 5; Асланов Г.М., Каталог, с. 29, табл. V, 2-3; Древнейшие государства, с. 171.
11. Плиний, 33, 18; Тит Ливий, IX, 46, 12, XXIII, 12, 2.
12. Сергеенко М.Е. Ремесленники Древнего Рима. Л.: Наука, 1968, с. 38.
13. Голубкина Т.И. Четыре кувшинных погребения из Мингечаура. Известия АН Азерб. ССР, 1956, с. 83, табл. IV рис. 7-8 и далее.
14. Исмизаде О.Ш. Ялойлутепинская культура. Баку: Изд-во АН Азерб. ССР., 1956, с. 23, табл. 9, рис. 2.
15. Древнейшие государства Кавказа и Средней Азии. М.: Наука, 1985, с. 101.
16. АСЭ. III, с. 183.

## НАТЕЛЬНЫЕ УКРАШЕНИЯ НАСЕЛЕНИЯ АНТИЧНОГО АЗЕРБАЙДЖАНА

Ф.К.АЛИЕВА

### РЕЗЮМЕ

Нательные украшения связаны с духовным миром и играют большую роль в изучении культуры. К ним относятся серьги, бусы, браслеты и другие украшения. По отрывочным данным трудно представить все богатство и красоту нательных украшений людей, живущих в древнем Азербайджане, хотя их изучение по письменным источникам и археологическому материалу представляет интерес для понимания культуры античного Азербайджана – Мидийской Атропатены и Кавказской Албании.

## BODY ADORNMENTS OF ANTIQUE AZERBAIJAN POPULATION

F.K.ALIYEVA

### SUMMARY

Body adornments is closely connected with spiritual word and play a great role in learning culture. The rings bracelets, beads and others are called there are adornments, we can speak a lot about adornments closly connecting with the antique Azerbaijan's historical reality. From the point of view of spiritual culture they are gained a great interest for investigation. In this direction the adornments are divided into 2 category adornment brote, from outside and local products.

Many times it is difficult to difer them. The local tradition often undergo western and eastern intensive influence. According to the fragmentary dates it is difficult to imagine all wealth and beauty of body adornment of people lived in ancient Azerbaijan though their studing according to the written sources and archeological material presents an interst for under standing antigue Azerbaijan art Midia Atropoten and Caucasian Albany.